HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

30 aprel 2017-cı il
№008 (46)

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / “იენი იოლი” საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## TÜRKİYƏ SƏFİRİ: GÜRCÜSTANI VƏ TÜRKİYƏNİ STRATEJİ TƏRƏFDAŞLIQ BAĞLAYIR VƏ BUNU HEÇ NƏ DƏYİŞƏ BİLMƏZ



Türkiyənin Gürcüstnadakı Fövqaladə və Səlahiyyətli səfiri Zəki Lələnd Gümrükçü Türkiyədə həyata keçirilən konstitusiya dəyişikliklərinin gürcü-türk münasibətlərinə heç bir problem yaratmayacağını bəyan edib.

Səfir vurğulayıb: “Gürcü-türk münasibətləri kifayət qədər möhkəm təmələ əsaslanır, bizi çox möhkəm strateji tərəfdaşlıq bağlayır və bunu heç nə dəyişə bilməz. Biz gələcəkdə gürcü-türk münasibətlərinin yalnız dərinləşməsini nəzərdə tuturuq. Türkiyədə vəziyyət olduqca sakit və normaldır. Məlum olduğu kimi, bazar günü (aprelin 16-da – red. qeydi) xüsusi bir hadisənin baş vermədiyi referendum keçirilib. Referendumda iştirak göstəricisi olduqca yüksək olub. Onda türk xalqının 60%-indən çoxu iştirak edib. İlkin nəticələr artıq elan olunub, yekun nəticələrin elan olunması üçün bir həftə, on gün vaxt gərəkdir.

İndiki mərhələdə, ilkin məlumatlara əsasən konstitusiya dəyişikliklərinin qəbul olunduğu bəllidir. Şikayət və narazılıqlar da var, amma, bu, bütün seçkilərdən sonra baş verir. Bu iddialara baxılır. Bu halların belə referendumun nəticələrinə təsiri yoxdur. Ona görə də prezident, baş nazir çıxış edərək, referendumun nəticələrini elan etdilər. Həmçinin ABŞ prezidenti, Böyük Britaniyanın baş naziri türk siyasətçiləri təbrik etdilər. Hər şeydən əvvəl,referendumun demokratik şəkildə keçirilməsi münasibətilə, əlbəttə ki, referendumun nəticələrinə görə təbrik etdilər.

Məlumdur ki, konstitusiya dəyişikliklərinin bir hissəsi təxirə salınmadan, qalan hissəsi isə 2019-cu ildə qüvvəyə minəcək. Həmin vaxt Konstitusiyaya daxil edilmiş dəyişikliyə uyğun olaraq eyni zamanda prezident və parlament seçkiləri keçiriləcək. Buna qədər isə Türkiyə parlamenti yeni qanunvericiliyin harmonizasiyası üzərində işləyəcək. Bu, Türkiyə demokratiyası üçün mühüm mərhələdir və biz ölkədə demokratiyanı möhkəmlətməyi davam etdiririk”.

## SOCAR GÜRCÜSTANA QAZ VERİLMƏSİNİ ARTIRMAĞA HAZIRDIR




Azərbaycanın SOCAR dövlət şirkəti Gürcüstana qaz verilməsini sutkada 3 milyon kubmetr artırmağa hazırdır. Bu barədə aprelin 26-da SOCAR-ın qaz ixracı şöbəsinin rəis müavini Nazim Səmədzadə məlumat verib.

Səmədzadə deyib: “SOCAR hazırda Gürcüstana gündəlik 7 milyon kubmetr qaz verir. 2016-cı ildə Hacıqabul-Qazax-Qardabani qaz xəttində aparılmış təmir nəticəsində boru kəmərinin buraxıcılıq qabiliyyətini 10 milyon kubmetrdək artırmaq mümkün olub. Buna görə biz Gürcüstana əlavə 3 milyon kubmetr qaz vermək imkanına malikik”. O, əlavə edib ki, Azərbaycan hər gün İrandan 8 milyon kubmetr qaz alır.

Gürcüstan neft-qaz korporasiyasının analitiki Liana Cervalidze isə SOCAR-ı Gürcüstana qaz verən strateji şirkət adlandırıb. O, xatırladıb ki, Gürcüstana qaz verilməsi ilə əlaqədar SOCAR-la uzunmüddətli, yəni 2028-ci ilədək müqavilə imzalanıb. Cervalidze əlavə edib ki, SOCAR-ın törəmə şirkəti olan SOCAR Georgia Gas 10 il ərzində Gürcüstana bir milyard dollarlıq sərmayə qoyub.

## GÜRCÜSTAN PREZİDENTİ TÜRKİYƏ TƏHLÜKƏSİZLİK ŞURASININ KATİBİLƏ DANIŞIQLAR APARIB

Gürcüstan prezidenti Georgi Marqvelaşvili və Türkiyə Təhlükəsizlik Şurasının katibi Seyfullah Hacımüftioğlu Tbilisidə ikitərəfli və çoxtərəfli məsələləri müzakirə ediblər. Məlumatı prezidentin mətbuat xidməti yayıb.

Gürcüstan Təhlükəsizlik Şurasının katibi David Rakviaşvili və Gürcüstan prezident administrasiyasının başçısı Georgi Abaşişvili də görüşdə iştirak ediblər.

Görüşdə ölkələr arasında əməkdaşlığın dərinləşdirilməsi, Qara dəniz regionunda sabitliyin, habelə müdafiə və təhlükəsizlik sahələrində ikitərəfli əməkdaşlığın gücləndirilməsi məsələlərinə toxunulub.

Gürcüstan prezidenti türk tərəfinə Gürcüstanın suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyinə görə təşəkkürünü bildirib.

Görüşdən sonra Gürcüstan Təhlükəsizlik Şurasının katibi David Rakviaşvili belə deib: “Biz üçtərəfli görüşlər, Türkiyə, Azərbaycan və Gürcüstan təhlükəsizlik şuralarının birgə memorandumu barədə danışdıq. Təhlükəsizlik, iqtisadiyyat və energetika sahəsində üçtərəfli Azərbaycan-Türkiyə-Gürcüstan əməkdaşlıq formatını müzakirə etdik. Düşünürük ki, bu il



Gürcüstan və Türkiyə prezidentlərinin görüşü baş tutacaq”.

Tbilisiyə üçgünlük səfəri çərçivəsində Türkiyə Təhlükəsizlik Şurasının katibi Gürcüstanın Müdafiə naziri Levan İzoriya, Xarici İşlər nazirinin müavini David Dondua, Xarici Kəşfiyyat Xidmətinin başçısı David Sucaşvili, Dövlət Təhlükəsizliyi və Böhranların İdarə olunması Şurasının katibi Mindia Canelidze, habelə təhlükəsizlik sferasında çalışan qeyri-hökumət təşkilatlarının rəhbərləri ilə görüşlər keçirib.

## ƏN NÜFUZLU PASPORTLAR ARASINDA GÜRCÜSTAN PASPORTU 43-CÜ OLUB

Gürcüstan pasportu dünyanın ən nüfuzlu pasportları arasında 43-cü olub. Bu barədə Kanadadanın maliyyə məsləhət şirkəti Arton Capital-ın 2017-ci il üzrə vizasız səyahət edilən ölkələrə əsasən hazırladığı siyahıda bildirilir.

Gürcüstan pasportu ilə 103 ölkəyə vizasız gedib-gəlmək mümkündür.

Azərbaycan pasportu bu siyahıda 63-cü pillədə qərarlaşıb.

Cənubi Qafqazın digər ölkəsi – Ermənistanın pasportu isə siyahıda 67-ci olub.

Gürcüstanın qonşuları arasında Türkiyənin pasportu ötən ilə müqayisədə bir addım geriləsə də, siyahının 42-cisi ola bilib. Bu pasportla 104 ölkəyə vizasız gedib-gəlmək mümkündür. Digər qonşumuz Rusiya pasportu siyahının 41-cisi olub və bu pasport




105 ölkəyə vizasız gediş-gəlişə imkan verir.

Dünyanın ən güclü pasportları isə Almaniya və Sinqapura məxsusdur. Bu ölkələrin vətəndaşları 159 ölkəyə vizasız səyahət edə bilirlər.


İŞSİZLİK – SOSİAL-İQTİSADİ MÜŞKÜLLƏR QAYNAĞI 2

SAMEQRELO RESPUBLİKASINI KİM VƏ NƏ ÜÇÜN YARATMAQ İSTƏYİR? 3

İSLAMOFOBİYANIN TƏBLİĞİNDƏN GÜDÜLƏN SİYASİ MƏQSƏDLƏR 4

MÜƏLLİMLİK PEŞƏSİNİ SEÇMƏK QƏRARI VƏ ONUN MƏSULİYYƏTİ 5

HZ. İBRAHİMİN DUASI, HZ. İSANIN MÜJDƏSİ HZ. MƏHƏMMƏD MUSTAFA (S.Ə.S) 6

VAQİF VƏ GÜRCÜSTAN 7



## İŞSİZLİK – SOSIAL-İQTİSADİ MÜŞKÜLLƏR QAYNAĞI

Afiq MUXTAROĞLU
amuxtaroglu@mail.ru

**"Nə işim işdi, nə də əlim boş" deyimini ilk dəfə kim deyibsə, kim səsləndiribsə, goru nurla dolsun. O üzdən ki, rəhmətliyin yüz illər bundan öncə söylədiyi bu fikir üzləşdiyimiz acı gerçəkləri anlatmaq baxımından müstəsna bir gücə malikdir. Belə bir kiçik girişdən sonra, etiraf edim ki, bu, məndə hər deyən alınmır, əsas mətləbə keçid almam gərəkdir.**

Əgər bu gün əhalinin ən çox bir-birinə hansı sualı ünvanladığını müəyyən etmək imkanımız olsa, sözsüz ki, ən çox eşidəcəyimiz cavablardan birinin "işsizlik" olacağına adım kimi əminəm. Dost-tanışın, qohum-əqrabanın, elə bir-birini tanımayanların da qarşılaşınca verdikləri ilk sual, məncə, "işləyirsənmi, işin varmı" sualıdır. İşsizlik iqtisadi bəladır, işsizlik ictimai bəladır, işsizlik kişinin, elə qadının da ailə, cəmiyyət qarşısında utanması üçün ən universal qaynaqdır. Adam adama qarğış edəndə "səni işsiz qal" desə, kifayətdir ki, qarşısındakına bütün bəlaları arzulamış olsun.

Deyək ki, kimsə gənclərin tərbiyəsizliyindən, üzüngürlüyündən, tüfeyliliyə meyilli olmasından şikayətlənir. Onun həmsöhbəti həmin dəqiqə bu fikri səsləndirir: "Vallah, hamısı boşluğun bəlasıdır". Bununla da birincinin fikrinin, şikayətinin üstündən xətt çəkilmiş olur və həmsöhbətinin bu sözləri soyuq su effekti yaradaraq, sanki birincini yuxudan ayıldır: "Hə, doğru deyirsən" – pıçıldamaqla qaragün mövqeyindən geri çəkildiyini bəyan etmiş olur. Heç kimə sirr deyil ki, bu gün gənclərin, bəzən elə orta yaşlıların və qocaların üz tutduqları məkanların sayı durmadan artmaqdadır. İşsizliyin yaratdığı boşluğu doldurmaq, ən ümdəsi də vaxt öldürmək üçün mahiyyətcə bir-birindən fərqlənməyən məkanların sayı istənilən qədərdir. Bölgələrimizdə bu məkanlar içərisində ən təhlükəsizinin çayxanalar olduğunu söyləmək olar. Düzdür, bəzən çayxanalar da təhlükə qaynağı ola bilir. Nədən ki, bu məkanları da qumar, spirtli içkilərin qəbulu yerinə çevirənlər tapılır. Bundan da təhlükəli məkanlar var – mərc-iddia yerləri, kazinolar. Bu yerlərin insanları, əsasən də işsizləri necə düşkün duruma soxduğunu söyləmək belə yersizdir.

Ekspertlər işsizliyi iqtisadi fəal əhalinin müəyyən hissəsinin öz iş qüvvəsini tətbiq edə bilmədiyini əks etdirən sosial-iqtisadi hadisə kimi dəyərləndirirlər. İşsizliyin insanlara birbaşa və ən sərt şəkildə təsir edən makroiqtisadi problem olduğunu söyləyirlər. İşsizlik bəzən sosial-iqtisadi çərçivədən çıxaraq siyasi müstəvidə iqtidar-müxalifət qarşıdurmasına və digər dartışmalara da gətirib çıxarır. İqtisadçılar işsizliyi doğuran səbəblər arasında ən çox iqtisadi böhran, yüksək inflyasiya, iqtisadiyyatın struktur yenidənqurulması, texniki tərəqqi, dövlətin demoqrafik siyasəti və s. kimi amillərin adını çəkirlər. İşsizliyin səviyyəsini müəyyənləşdirmək üçün müxtəlif metod və üsulların tətbiq olunmasını da bu sahənin mütəxəssisləri yaxşı bilirlər və internet resurslarda bu barədə kifayət qədər məlumatın olduğunu diqqətinizə çatdırıb, ölkəmizin işsizlik səviyyəsi barədə qısa qeydlərimi nəzərinizə yetirmək üçün növbəti abzasa keçid almaq istəyirəm.

Gürcüstan Milli Statistika Xidməti "Sakstat"ın məlumatına görə, ölkəmizdə işsizlik göstəricisi 12% təşkil edir. Elə bu göstəricidən yola çıxsaq, ölkəmizdə hər 100 nəfərdən 12-sinin işsiz olduğunu söyləmək olar. İşsizlik səviyyəsi 20-24 yaşlı gənclər arasında daha yüksəkdir. Nə az, nə çox, düz 32%-dir. Orasını da qeyd edək ki, gətirilən faktlar yalnız ümumi göstəriciləri əks etdirir. 20-24 yaşlı gənclər arasında işsizlik bu qədər yüksəkdirsə, başqa cür desək, bu kateqoriyadan olan gənclərin üçdə biri işsizlikdən əziyyət çəkirsə, bizim, yəni böyüklərin onları nədəsə ittiham etməsi nə dərəcədə doğrudur. Düzdür bu gənclərin bir qismi zamanın sınağından üzüağ çıxa biləcək, buna müvəqqəti çətinlik kimi baxıb, mübarizə aparacaq və öz gözəl gələcəyini quracaq. Amma, təəssüf ki, bir qismi də açılmamış solan çiçəyə dönəcək. Və məni düşündürən, qayğılandıran da məhz bu sonunculardır. Yuxarıda verilən rəqəmlər quru, heç bir hiss və duyğu ifadə etməyən işarələr kimi görünsə də, onların arxasında puç olmağa, avaraçılığı, tüfeyliliyi özünə vərdiş etməyə məhkum insan talelərinin gizləndiyini üzərə çıxarmaq üçün mütəxəssis olmağa belə eytiyac yoxdur. Kiçik bir müşahidə kifayətdir ki, gerçək mənzərənin, real təhlükənin nədən ibarət olduğunu aşkarlayasan.

**Yazımı nikbin notlarla bitirmək niyyətindəyəm. Nədən ki, hökumətimizin ölkəmizdə yaxın 3-4 il ərzində 2500 infrastruktur layihəsi gerçəkləşdirmək üçün 10 milyard lari pul xərcləmək istəyi məni belə bir addım atmağa vadar edir. Üstəgəl, bu layihələrin gerçəkləşməsindən dolayı 40 000 yeni iş yerinin açılması anonsunun verilməsi də adamı gələcəyə ümidlə baxmağa, nikbin olmağa ruhlandırır.**

## "SÜLH, SEVGİ VƏ RƏHMƏT PEYĞƏMBƏRİ" ADLI ŞEİR MÜSABİQƏSİNƏ YEKUN VURULDU

Aprelin 25-də Rustavi şəhərindəki "Tamada" restoranında Bütün Gürcüstan Müsəlmanlar İdarəsinin təşkilatçılığı ilə Məhəmməd Peyğəmbərin mövluduna həsr olunmuş tədbir keçirilib. Gürcüstanın müxtəlif bölgələrindən dəvət olunmuş dindarlar, ziyalılar və ictimaiyyətin nümayəndələri bu təntənəli tədbirin iştirakçısı olublar.

Tədbirdə Bütün Gürcüstan Müsəlmanları İdarəsi tərəfindən elan olunmuş "Sülh, Sevgi və Rəhmət Peyğəmbəri" adlı şeir müsabiqəsi qaliblərinin mükafatlandırılması mərasimi də baş tutub. Qeyd edək ki, 2017-ci ilin əvvəllərindən Məhəmməd Peyğəmbərin mübarək mövludu münasibətilə elan edilən ilk şeir yarışmasına ölkəmizdə yaşayıb, yaradan şairlər qatılmış və onlardan beş nəfəri müsabiqənin qalibi seçilib. Münsiflər heyəti on nəfərin isə həvəsləndirici mükata layiq görülməsini məqsədəuyğun hesab edib.

Sevindirici haldır ki, qəzetimizin yazarı Hacı Bəkiroğlu da həvəsləndirici mükafata layiq görülənlər arasında olub. Biz də öz tərəfimizdən bütün qalibləri təbrik edir, onlara yaradıcılıq uğurları arzu edirik.

Xatırladaq ki, Bütün Gürcüstan Müsəlmanları İdarəsi tərəfindən Akif Xansultanlının redaktorluğu ilə müsabiqə iştirakçılarının şeirlərindən ibarət toplu da işıq üzü görüb.

## GÜRCÜSTANDA KONTRAKTLA HƏRBİ XİDMƏT ETMƏK İSTƏYƏNLƏRİN QƏBULU ELAN EDİLDİ

Gürcüstan Müdafiə Nazirliyi ölkənin Silahlı Qüvvələrində müqavilə ilə dördillik hərbi xidmət üzrə qəbul elan edir. Müdafiə Nazirliyinin məlumatında 27 yaşı tamam olmamış, həqiqi hərbi xidmət keçməmiş və həqiqi hərbi xidmət qeydiyyatında olan Gürcüstan vətəndaşlarının kontrakt əsasında hərbi xidmət keçə biləcəkləri bəyan edilir.



Yaşı 35-i keçməmiş ehtiyatda olan sıravilər, kapral və serjantlar (miçmanlar) kontraktla hərbi xidmətçi ola bilərlər. Kontraktla xidmət etmək istəyənlər gərək olan sənədləri təqdim etdikdən sonra 10 həftəlik ibtidai döyüş hazırlığı kursu keçəcəklər. İbtidai döyüş hazırlığı kursları iyunun 5-dən başlayacaq.

İbtidai hərbi hazırlıq kursunu uğurla keçdikdən sonra hərbiçilər hərbi hissələrə göndəriləcəklər. Müdafiə Nazirliyi bildirir ki, kontraktla hərbi xidmətdə olanlar dörd il ərzində rütbəsindən, vəzifəsindən və hərbi stajından asılı olaraq artan yüksək əməkhaqqı alacaqlar.

Bundan əlavə, kontraktla hərbi xidmət keçənlər müasir geyim və pulsuz tibbi xidmətlə təmin ediləcəklər. Nazirlikdə bildiriblər ki, kontraktla hərbi xidmət yüksək əməkhaqqından əlavə mənsəb yüksəlişinə də imkan verir.

## SÜRÜCÜLƏRİN 100 BALLIQ SİSTEM ÜZRƏ QİYMƏTLƏNDİRİLMƏSİNƏ BAŞLANILIR

Gürcüstan parlamenti yol hərəkəti qaydalarının gücləndirilməsinə dair qanunvericilik dəyişikliklərini təsdiqləyib.

"Yol hərəkəti haqqında" qanuna düzəlişlər edilməsi məsələsi 2015-ci ildən parlamentdə müzakirə olunur. Düzəlişləri yekun, üçüncü oxunuşda 89 deputat dəstəkləyib, əleyhinə heç kim səs verməyib.

Düzəlişlər cərimələrin artırılmasını, gizli paturul xidmətinin yaradılmasını, habelə 2017-ci il iyulun 1-dən yol hərəkəti qaydalarının pozulmasını qiymətləndirən 100 ballıq sistemin tətbiq olunmasını nəzərdə tutur. Hər il sürücülük vəsiqəsinə 100 bal veriləcək və ondan qayda pozuntusunun növündən asılı olaraq müvafiq bal çıxılacaq. Əgər sürücü il ərzində 100 bal həcmində qayda pozuntusu edərsə, sürücülük hüququndan məhrum ediləcək.

## AVTOMAGİSTRALLARDA VƏ BƏLƏDİYYƏ YOLLARINDA VİDEORADARLAR QURAŞDIRILACAQ



Yaxın aylarda bütün Gürcüstan miqyasında videoradarlar quraşdırılacaq. Bu fikri Gürcüstan regional inkişaf və infrastruktur nazirliyinin avtomobil yolları departamentinin sədri Georgi Seturidze səsləndirib.

Seturidze qeyd edib ki, bu, müvafiq qurumlara yol hərəkəti qaydalarını pozanları aşkarlamaq üçün imkan yaradacaq.

"Hələ keçən il hökumət qərar qəbul edib və yaxın aylarda hakimiyyət bütün Gürcüstan üzrə videoradar sisteminin quraşdırılması layihəsinə başlayacaq. Bu bələdiyyə yollarına, avtonəqliyyat hadisələrinin tez-tez baş verdiyi yaşayış məntəqələrinə də aid olacaq. Bu, bizə yol hərəkət qaydalarına əməl etməyən şəxsləri aşkara çıxarmağa imkan verəcək" – Seturidze bəyan edib.

## AZƏRBAYCAN NÜMAYƏNDƏSİ MOSKVA KONFRANSINDA TÜRKİYƏ, GÜRCÜSTAN VƏ İSRAİLİ MÜDAFİƏ ETDİ



Bu günlərdə Moskvada MDB ölkələrinin politoloq və ekspertlərinin iştirakı və RF prezidenti yanında Rusiya Strateji Tədqiqatlar İnstitutunun təşkilatçılığı ilə "Postsovet məkanında inteqrasiya prosesləri: problemlər və perspektivlər" konfransı keçirilib. Məlumatı azeri.today saytı yayıb.

RF-da yaşayan, Rusiyadakı Azərbaycan diaspornun nümayəndəsi, Azərbaycan Respublikası vətəndaşlarının diplomatik sahədə hüquqlarının təhlükəsizliyi və müdafiəsi üzrə Milli Siyasət Komitəsinin başçısı, politoloq Rüfət Əliyev öz çıxışında vurğulayıb: "Azərbaycan geosiyasi mərkəzlərin mübarizə meydanı olmayıb və olmayacaq".

Separatçı respublikaların və Ermənistan nümayəndələrinin antitürk, antiisrail və antigürcü çıxışlarına cavab olaraq konfransda Rüfət Əliyev bəyan edib: "Təəssüf ki, bu gün əlverişli vəziyyətdən istifadə edən iştirakçılar Gürcüstana hücum etdilər. Bunu etmək asandır, çünki bu masa arxasında bu ölkənin nümayəndəsi yoxdur. Lakin mən buradayam, deyə bilərəm ki, Azərbaycan tərəfə indiyədək qondarma respublikaların bu qurultayda iştirak etməsi faktı aydın deyil. Azərbaycan Respublikası Gürcüstanın, Moldavanın və Ukraynanın ərazi bütövlüyünü dəstəkləyir. İsrailə gəlincə, o, Azərbaycan xalqının və bütün yəhudilər üçün ikinci vətənin tarixi dostudur.

Siz bilirsiniz ki, Türkiyə, Gürcüstan və İsrail bu tədbirdə təmsil olunmur və bundan istifadə edirsiniz. Lakin mən buradayam və sizə mən cavab verəcəm!".

Erməni-türk münasibətlərinə və uydurma "erməni soyqırımı" məsələsinə toxunan Rüfət Əliyev vurğulayıb ki, hələ bir neçə il əvvəl Ərdoğan erməni rəhbərliyinə bütün arxivləri açmağı və bu məsələləri tarixi müstəvidə həll etməyi təklif etmişdi. Amma Ermənistan bundan imtina etdi, ABŞ və Avropa Türkiyənin mövqeyini yüksək qiymətləndirdi. Bu, regionda sülhü kimin istəmədiyini aydın göstərir.

Konfransın gedişində təşkilatçılar, məruzəçilər və iştirakçılar bir neçə dəfə Azərbaycan nümayəndəsinin nitqini kəsməyə cəhd ediblər. R. Əliyev bunun cavabında bəyan edib: "Əgər siz sədrsiniz, təşkilatçısınız, lektorsunuz və ya kimsinizsə, bu o demək deyil ki, Siz Azərbaycanın ağzını elə-belə bağlaya bilərsiniz".

Qeyd edək ki, Rüfət Əliyev çıxış edərkən RF-nın Xarici Kəşfiyyat Xidmətinin keçmiş direktoru, RF-nın keçmiş baş naziri, Rusiya Strateji Tədqiqatlar İnstitutunun rektoru M. E. Fradkovun başçılığı ilə institutun mütəxəssisləri və elmi əməkdaşları da konfransın işində iştirak ediblər. Yeri gəlmişkən, Fradkov və tədbirin təşkilatçıları Azərbaycan nümayəndəsinin hazırlıq səviyyəsini yüksək qiymətləndirmiş və iştirakına görə öz razılıqlarını və minnətdarlıqlarını bildirmişlər.

## BAKIDA AZƏRBAYCAN VƏ GÜRCÜSTAN ARASINDA SƏRHƏDLƏRİN DELİMİTASİYASI MÜZAKİRƏ OLUNUB



Bakıda Azərbaycan və Gürcüstan arasında dövlət sərhədlərinin delimitasiyası məsələlərinə dair növbəti məsləhətləşmələr keçirilib. Danışıqlar Azərbaycan xarici işlər nazirinin müavini Xələf Xələfov və onun gürcü həmkarı David Donduanın rəhbərliyi altında baş tutub.

Görüşdə hər iki ölkənin xarici işlər nazirliklərinin nümayəndələri, Azərbaycanın müvafiq dövlət orqanlarının ekspertləri də iştirak ediblər.

Dövlət sərhədlərinin keçdiyi xətt, habelə sonradan komissiyalarda baxılmaq üçün müəyyən sənədlərə dair fikir mübadiləsi də aparılıb.

Baş tutan məsləhətləşmələr nəticəsində tərəflər razılaşdırılmamış sahələr üzrə müzakirələri davam etdirməyi və komissiyaların Tbilisidə növbəti iclasının keçirilməsi üçün lazım gələn tədbirlərin görülməsi barədə razılığa gəliblər.

Azərbaycan və Gürcüstan arasında sərhəd 480 kilometrdir. Hər iki tərəfin Dövlət komissiyaları sərhəd xəttinin böyük hissəsini razılaşdırıblar. Tərəflər sərhədlərin delimitasiyası üzrə işləri bu il başa çatdırmağı nəzərdə tuturlar.

## SAMEQRELO RESPUBLİKASINI KİM VƏ NƏ ÜÇÜN YARATMAQ İSTƏYİR?

**Sameqrelo Gürcüstanın tərkibinə daxil olan suveren, demokratik respublikadır. Müəllifi və təşəbbüskarı Rajden Todua olan Sameqrelo konstitusiyasının işçi layihəsi bu sözlərlə başlayır. O, Zuqdidi rayonunun Narazeni kəndində doğulub, hazırda Sankt-Peterburqda yayaşayır. 61 maddədən ibarət konstitusiya layihəsinə əsasən, Sameqrelonun qanunla müəyyənləşdirilən öz rəmzləri – bayrağı, gerbi və himni var. Respublikanın paytaxtı Zuqdididir. Onun sərhədləri və ərazisi toxunulmazdır, dəyişmir və ya bölünmür.**

Müəllifin bizə verdiyi konstitusiya layihəsinə görə Sameqrelo Respublikasının prezidenti var. Andiçmə mərasimində o, ana dilində, meqrel dilində and içir. Layihə həyata keçdiyi təqdirdə kargüzarlıq işləri məhz bu dildə həyata keçirilməlidir. Bir sözlə, meqrel dili bugünkü, məişət, gündəlik funksiya yerinə yetirmək çərçivəsindən çıxaraq işgüzar və təhsil prosesinin aparıldığı dilə çevrilir. Respuplikada meqrel dili ilə birlikdə gürcü dili dövlət dili olur.

Gürcüstan konstitusiyası çərçivəsində Gürcüstan və Sameqrelo arasında münasibətlər razılaşma və müqavilə əsasında tənzimlənir. Konstitusiya layihəsinin əsas şərtlərindən biri Sameqrelo xalqının ümumi referendumunun qərarı əsasında Sameqrelo Respublikasının Gürcüstan Respublikasının tərkibindən çıxmaq hüququ var.

Rajden Todua Sameqrelo konstitusiyasını təxminən 17 il əvvəl tərtib edib. O, həmin vaxt Gürcüstanın yeni dövlət quruculuğu şəraitində dəyişikliklərə hazır olduğunu və demokratik prinsiplər əsasında hamının öz identikliyini, öz ana dilində danışıb, işləməsi üçün fürsət yarandığını və özünü dərketmə hüququnun meydana çıxdığını güman etdiyini söyləyir.

O, həmişə özünü meqrel hesab edib, hətta bu gün öz identikliyini saxlamaq üçün bu məsələnin tənzimlənməsi üçün konstitusiyadan başqa bir yol görmür. Peterburqdakı təhsil dövrü onu kolxolmalarına və əski dövlətçiliyin bərpasının mümkünlüyünə daha çox inandırıb.

Düşünürəm ki, əgər artıq gec deyilsə, Gürcüstanın dövlət quruluşunun dəyişdirilməsi vaxtı çatıb. Bu cür birtərəfli yanaşma və gürcülərin özündən razılığı Gürcüstanı bugünkü siyasi duruma – iqtisadi geriliyə və ərazilərin itirilməsinədək gətirib. Bəllidir ki, bu ideyanın əleyhdarları olacaq. Ağrını kütləşdirib sonra öldürən yalanı deməkdənsə, sonra sağalması mümkün olan yaralayıcı acı həqiqəti demək daha yaxşıdır. Böyük millət kimi biz meqreller özünüqiymətləndirməni yüksəltməliyik" – Rajden Todua "Livepress"ə deyib. Onunla müsahibə meqrel dilində keçirilib, çünki, o, gürcü dilini bilmədiyini söyləyib.

Konstitusiya layihəsinin bir maddəsinə görə, Sameqrelonun öz vətəndaşlığı yaradılır. Sameqrelo Respublikasının vətəndaşı eyni zamanda Gürcüstan vətəndaşıdır. Öz növbəsində Gürcüstan vətəndaşları Sameqrelo ərazisində bütün hüquqlardan və əsas azadlıqlardan istifadə edirlər. Onların üzərinə hər iki respublika konstitusiyasına və beynəlxalq hüququn ümumi prinsip və normalarına əsasən bərabər öhdəliklər qoyulur.

Layihəyə əsasən, hamı vətəndaşlıq və milli mənsubiyyətini göstərmək hüququndan istifadə etməlidir və heç kim onları bunu etməyə məcbur edə bilməz.

"Bu, bizim birliyimizə mane olmur. Mən heç yerdə Gürcüstanın dağılmasını yada salmamışam. Söhbət yeni siyasi sistemdən, tarixən burada mövcud olmuş dövlətin bərpasından, Kolxida Federativ Respublikası adının qaytarılmasından gedir. Əgər dövlət orqanlarının özləri elə bu gündən bu məsələlər üzərində işləsələr daha yaxşı olar. Onda onlar separatizm barədə danımayacaqlar. Yoxsa onlar özlərinə bəraət qazandırmaq üçün kimisə və ya hansısa xarici gücü günahlandıracaqlar" – Rajden Todua deyir.

Layihəyə görə, Sameqrelo prezidenti və parlamenti, məhkəmə sistemi və müstəqil istintaq orqanları olan dünyəvi dövlətdir. Prezidenti Sameqrelo vətəndaşları gizli səsvermə yolu ilə 5 il müddətinə seçirlər. Eyni şəxs dalbadal iki müddətdən artıq prezident vəzifəsi tuta bilməz.

Prezidentliyə 35 yaşına çatmış, 10 il ərzində Sameqrelo ərazisində daim yaşamış və meqrel dilini bilən şəxslər iddia edə bilərlər.

Layihəyə əsasən, Sameqrelo Respublikası Mərkəzi Seçki Komissiyası ilə birlikdə 35 nəfərdən ibarət parlamentə və prezidentin təyin etdiyi baş nazirə malik olmalıdır. Bir sözlə, Sameqrelo prezident respublikasıdır və öz sərhədləri daxilində inzibati-ərazi qurluşu məsələlərini müstəqil olaraq həll edir, Gürcüstan Respublikasının siyasətilə razılaşdırılmış dövlət hakimiyyəti sistemini müəyyənləşdirir.

"Respublika vətəndaşları üçün hərbi xidmət məcburi deyil. Nikah qarşılıqlı razılığa və qadın və kişinin sərbəst iradəsinə əsaslanır. Təhsilin Sameqrelonun dövlət dilində aparıldığı dövlət təhsil müəssisələrində məktəbəqədər, ümumi və orta peşəkar təhsil hüququ təmin olunur" – bu, konstitusiya layihəsindən çıxarışdır, müəllifin sözlərinə görə, o, hələ tamamlanmış vəziyyət almayıb.

Rajden Toduanın sözlərinə görə, iş Sameqrelo əhalisi sənədlə tam tanış olanadək davam etdiriləcək, onların mülahizələri və rəyləri hazır qanun layihəsində əks olunacaq.

Qanun layihəsi rus dilində yazılıb. Müəllif aydınlaşdırıb ki, o səbəbdən rus dilində yazıb ki, meqrel dili ölməkdədir, fəaliyyət göstərmir, işləmir. Məhz buna görə, o, bu dilin statusnun olmasını və gündəlik həyatda fəal istifadə olunmasını düşünür.

Rajden Toduanın sözlərinə görə, konstitusiya layihəsinin tərtib olunması şərtlərindən biri öz identikliyini ifadə etmənin məcburi vasitəsi kimi meqrel dilinin qorunmasının vacibliyidir. O, artıq çoxdan onu separatizmdə və separatizmi təşviq etmədə günahlandıran şaiyələrə əhəmiyyət vermir. Onun fikrincə, əgər gürcü dövləti meqrel xalqının özünəməxsusluğunu qoruma məsuliyyətini öz üzərinə götürərsə, belə məsələlər qalxmayacaq.

**"Bilirəm, belə fikir var ki, mən ruspərəstəm, çünki burada yaşayıram, lakin bu cür əsassız söhbətlərə fikir vermirəm. Hesab edirəm ki, bu cür yalnız aşağı intellektli, meqreli anlamaq istəməyən və ya fiziki olaraq bunu anlamayan adamlar düşünürlər. Harada yaşamağımdan asılı olmayaraq, mənim düşüncəm dəyişməyəcək" – Rajden Todua bildirdi və qeyd etdi ki, müasir Gürcüstan demokratik prinsiplərə əsaslanır və fərqli düşünən adamları təqib etmir.**

Nino TOLORAYA
(http://www.livepress.ge/ru/2016-02-01-10-17-30/article/18351-2017-02-25-19-18-15.html)
Tərcümə edəni Afayət AFİQ



## İSLAMOFOBİYANIN TƏBLİĞİNDƏN GÜDÜLƏN SİYASİ MƏQSƏDLƏR

Sahib MUSTAFA
*sahib1975.sm@gmail.com*

**Son zamanlar Avropanın ayrı-ayrı ölkələrində ultrasağ meyilli qüvvələrin fəallaşma tendensiyası müşahidə edilməkdədir. Hər zaman özgürlük, insan hüquqlarının aliliyi, tolerantlıq kimi demokratik dəyərlərin məskəni hesab olunan bu region get-gedə fundamental köklərindən qopmaqdadır. Xüsusilə də, Yaxın Şərqdə tuğyan edən daxili çəkişmələrə imperialist ambisiyalı ölkələrin müdaxiləsindən sonra Avropaya üz tutan qaçqınlar ordusu ifrat fəlsəfəli siyasi birliklərin fəallşmasına səbəbiyyət verib. Artıq Köhnə qitə ölkələrində seçki kompaniyalarının süjeti islamofobiya və "islama nifrət" ssenarisi üzərində qurulur. Seçicilərin səsi uğrunda yarışda sağlam platforma hazırlamaqdansa, islam dini və müsəlmanlara nifrət çağrışlı şüarlar səsləndirmək bir utanc, rəzalət, acizlik nümunəsidir.**

Britaniya Kral İnstitutu analitik mərkəzinin apardığı sosialoji araşdırma nəticəsində məlum olmuşdur ki, Avropanın ümumilikdə əhalisinin yarıdan çoxu müsəlman immiqrantları öz ölkələrində görmək istəmir. Polşa, Belçika, Macarıstan və Fransa vətəndaşlarının bu utancverici siyahıda "öndə" olması onların dini dözümlülük və "qonaqpərvərlik"dən nə dərəcədə uzaq olduğunu sübut edir. Macarıstan Baş naziri Viktor Orbanın müsəlman qaçqınların qarşısını almaq üçün Serbiya ilə sərhəddə dəyəri 130 milyon dollar olan divar hördürməsi bariz islamofobiya nümunəsidir.

Hollandiya, Almaniya, Fransa, Polşa kimi ölkələrdə ifrat sağmeyilli partiyalar islama nifrət təbliğatları ilə siyasi devidendlər əldə etməkdədirlər. Hollandiyada son parlament seçkilərində Qert Vildersin rəhbərlik etdiyi ultrasağ idealogiyalı "Azadlıq Partiyası" 150 yerlik parlamentdə 20 deputat kreslosu əldə etdi. Halbuki, əvvəlki parlament dönəmidə Vilders parlamentə cəmi 15 deputat keçirə bilmişdir. Onun "uğur" qazanmasında Türkiyə əlehinə seçkiqabağı bəyanət səsləndirməsi və Qurani-Kərimin ölkəsində qadağan edəcəyini vəd etməsi böyük "rol" oynamışdır.

II Dünya müharibəsindən sonra Fransada prezident seçkilərində mühafizəkarlar və islahatçı qüvvələr bir-birini əvəz edirdisə, artıq radikal sağçıların açıq-aşkar fəallaşması göz qabağındadır. Bu ölkədə son prezident seçkilərində ifrat sağmeyilli "Milli Cəbhə"nin lideri Marin Le Penin ikinci olmasında İslam dininə nifrəti onun bu qələbəsini gerçəkləşdirdi. Üzdəniraq siyasətçinin Fransada və Avropada müsəlmanların sayının artmasını II Dünya savaşı dönəmindəki alman işğalları ilə eyniləşdirməsi islamofobiyaya şərhsiz nümunədir. İki dəfə ailə qurub və boşanan bir qadının tək bir ailəyə sahib çıxa bilməməsini nəzərə alsaq, Marin Le Penin Fransanı hansı sivil dəyərlərlə idarə edəcəyi planları çoxsaylı şübhələrə açıqdır. Yarım əsrdən artıq Türkiyənin Avropa İttifaqına üzv qəbul edilməməsinin ən başlıca səbəblərini də məhz burada axtarmaq gərəkdir.

Son zamanlar geniş vüsət almış beynəlxalq terrorun İslamla bir konteksdə işlədilməsi ayrıca narahatçılıq doğurmaqdadır. Baş vermiş istənilən terror aktına islam "möhür"ü vurulur və beləliklə müsəlmanlara qarşı qorxu stereotipi pərçimlənir. Bu tip neqativ təbliğat formalaşan yeni nəslin nümayəndələri arasında islama nifrət toxmu səpməyə xidmət edir.

**Acınacaqlı faktlardan biri də odur ki, 40 ilə yaxın terror və separatizmlə mübarizə aparan Türkiyə yetərli beynəlxalq dəstək almamışdır. Əksinə, Ankara üzərində təzyiqləri artırmaq üçün zaman-zaman PKK terror təşkilatının başı "tumar" görməkdədir. Avropa Şurası Parlament Assambleyasının Türkiyəni yenidən monitorinq altına alması deyilənlərin təsdiqidir. Ərdoğan isə qərarın siyasi motivlərlə bağlı olduğunu vurğulayaraq, Ankara tərəfindən tanınmadığını bildirmişdir. Deməli, Türkiyə kimi müsəlman dövlətinin yüksəlişi islamofobik Avropanın əzici siyasət doktrinası ilə bir araya sığmır. Qərb dünyasında irqçilik və dini ayrıseçkiliyin siyasətin önünə keçməsi artıq danılmaz faktdır. Bir çox Avropa liderlərinin dinlərarası və millətlərarası dostluq çağrışları yalnız səslənişi gözəl sözdən başqa bir şey deyil. Təəssüflər olsun...**

## AVROPA İTTİFAQI 2016-CI İLDƏ 700 000 QAÇQINA SIĞINACAQ VERİB

Avropa İttifaqı 2016-cı ildə 700 000 qaçqına sığınacaq verib. 2015-ci ildə bu göstərici 330 000 nəfər təşkil edirdi. Məlumatı Aİ-nın Eurostat statistika xidməti yayıb.

Statistikaya görə, Almaniya 445 000 qaçqına sığınacaq verib və bu 2015-ci ilin göstəricilərindən üç dəfə çoxdur. Almaniyanın ardınca 69 350 qaçqın qəbul edən İsveç gəlir. 2016-cı ildə İtaliya 35 450, Fransa isə 35 170 qaçqına qucaq açıb. Bu qaçqınların yarıdan çoxunu Suriyadan qaçanlar təşkil edir.

Diqqətəlayiq hal budur ki, Suriya qaçqınlarının sığınacaq almaq barədə müraciətlərinin 98%-i müsbət cavablandırılıb.

## AVROPA JURNALİSTLƏRİNİN ÜÇDƏ BİRİ FİZİKİ ZORAKILIQLA ÜZLƏŞİR

Avropa Şurasının 47 ölkəsində və Belarusda jurnalistlərin təxminən üçdə biri (31%) öz işini yerinə yetirərkən fiziki təzyiqlə üzləşir. Bu məlumat Avropa Şurasının aprelin 20-də yayılan araşdırmasında verilib. 2016-cı ilin aprelindən aparılan araşdırmanın gedişində 47 ölkədən 940 jurnalistin fikri öyrənilib.

Jurnalistlərə qarşı təsir etmənin ən geniş yayılmış forması psixoloji, o cümlədən də qorxutma, təhdid, təhqir kimi təzyiq üsullardır. Rəyi soruşulanların 69%-i bu cür hallarla üzləşdiklərini bildiriblər. İkinci yerdə internetdə hədələmə kimi üsul durur. Rəyi öyrənilənlərin 52%-i qərəzkarıqda günahlandırıldıqlarını, nüfuzdan salma məqsədilə hücumlara məruz qaldıqlarını söyləyib.

Jurnalistlərin 46%-i güc tətbiq edilmə ilə hədələndiyini, 39%-i təqibə məruz qaldığını, 35%-i polis tərəfindən hədələnməyə məruz qaldığını vurğulayıb. Rəyi soruşulanların 21%-i son üç ildə işi üçün lazım olan ləvazimatın və mülkiyyətin müsadirə edildiyini söyləyib. Jurnalistlərin 23%-i qanunla təqib olunaraq, həbs edilib.

Məruzədə Cənubi Qafqaz ölkələrində jurnalistlərin daha çox fiziki hücumlara məruz qaldıqları deyilir.

Təzyiqlə üzləşən jurnalistlərin təxminən üçdə biri üslublarının tonunu dəyişib. 23%-i isə məlumatın müəyyən hissəsini çap etdirməyib, 15%-i isə məlumatı çap etdirməkdən imtina edib.

## RUSLARIN ƏMƏK MİQRANTLARINA MƏNFİ MÜNASİBƏT BƏSLƏMƏLƏRİ BƏLLİ OLUB



Rusların yalnız 10%-i Cənubi Qafqazdan olan miqrantlara yaxşı münasibət bəsləyir.

Bu nəticə "Levada Çentr" şirkətinin keçirdiyi sorğudan sonra ortaya çıxıb. Sorğuya əsasən, rusların 34%-i qafqazlılara pis, 51%-i isə neytral münasibət bəsləyir. Rusların ən çox xoşuna gəlməyən miqrantlar Mərkəzi Asiyadan olan şəxslərdir. Belə ki, rusların yalnız 5%-i bu bölgədən olanları sevir.

Rusların ən çox sevdiyi əmək miqrantları Ukrayna və Belarusdan gələnlərdir. Rusların 52%-i öz slavyan qardaşlarının Rusiyada çalışmasına razıdır.

Rusiya əhalisinin 67%-nin fikrincə, hökumət miqrantların ölkəyə axınının qarşısını almalıdır. Rəyi soruşulanların 19%-i isə bununla razılaşmayıb. Rusların həmçinin 32%-i miqrantlara aztəhsilli insan, 28%-i bütün çətinliklərə dözən bədbəxt insan, 26%-i əməksevər insan, 25%-i öz ailəsinin qayğısına qalan şəxs kimi baxır.

## DÜNYA ÖLKƏLƏRİ SÜRƏTLƏ SİLAHLANIR

Keçən il dünya ölkələrinin hərbi xərcləri 2015-ci illə müqayisədə 0,4% artıb.

Bu barədə informasiya Stokholm Sülh Problemlərinin Tədqiqatı üzrə Beynəlxalq İnstitutunun (SİPRİ) illik hesabatında yer alıb. Hesabata görə, keçən il dünya ölkələrinin ümumi hərbi xərcləri 1,686 trilyon dollar olub.

ABŞ, Çin və Rusiya silahlanmaya görə ilk üçlüyü təşkil edib. Vaşinqton keçən il silahlanma üçün 611 milyard dollar (artım 1,7%), Pekin 215 milyard dollar (artım 5,4%), Moskva isə 69,2 milyard dollar (artım 5,9%) ayırıb. 2015-ci ildə üçüncü yerdə qərarlaşan Səudiyyə Ərəbistanı 2016-cı ilin göstəricilərinə görə 4-cü olub. Ər-Riyadın hərbi xərcləri 30% azalaraq, 63,7 milyard dollar təşkil edib.

## DÖVLƏT DUMASINDA LENİNİN NƏŞİNİN DƏFN OLUNMASINA DAİR QANUN LAYİHƏSİ HAZIRLANIB



Rusiya Dövlət Dumasına Vladimir Leninin nəşinin dəfn olunması üçün hüquqi mexanizm yaradılmasını təklif edən qanun layihəsi daxil olub. Bu barədə qanun layihəsinin təşəbbüskarlarından biri Vladimir Sısoyev (RLDP) məlumat verib.

Sısoyev deyib: "Biz fəaliyyətdə olan dəfn mərasimi haqqında qanuna müvafiq düzəlişlər təklif etmişik".

"Bizim qanun layihəsi Leninin meyitinin yenidən dəfn olunmasının hüquqi mexanizmini təşkil edir. Dəfnolunma qaydası və vaxtı, habelə dəfn yerini hökumət müəyyənləşdirməlidir" – Sısoyev əlavə edib.

"Levada-Çentr"in yaxınlarda keçirdiyi sorğuya görə, rusiyalıların yarıdan çoxu Leninin nəşinin dəfn edilməsinə tərəfdardır. Rəyi soruşulanların 32%-i bunu Kreml divarlarında, 26%-i Sankt-Peterburqun Volkov qəbristanlığında dəfn etməyi məsləhət görüb, 31%-i isə meyitin mavzoleydə saxlanmasına tərəfdar olduğunu bildirib.

Xatırladaq ki, 2017-ci il aprelin 22-də Lenin anadan olmasının 147 illiyi idi.

## FANATİZM – KOR MƏHƏBBƏT

*Bir məfhuma kortəbii bağlanmaq, onun məhvinə gətirib çıxarır. Belə bir deyim var: çöl pişiyi balasını çox istədiyindən basıb yeyir.*

Bir şeyə kortəbii bağlanmaq, haqlı-haqsız müdafiə etmək düzgün deyil.

Təsəvvür edin, bağban tənək saldığı bağı o qədər sevir ki, heç bir hissəsinə qayçı vurmur və tənəklik vaxtsız qocalır, yararsızlaşır və məhsulu da azalır. Halbuki, arıtlasaydı özəklər yüngülləşib, cavanlaşıb məhsul verməyə davam edəcəkdi.

Bir şeyə korkoranə bağlanmaq, onun yalnız yaxşı tərəflərini görmək, mənfisini görməzdən gəlmək fanatizmdir. Ona belə tərif verirlər: Fanatizm [lat.] – Fanatik adamın düşüncə və hərəkət tərzi; başqa etiqadlara düşmən münasibət bəsləyib öz inandığına hədsiz sədaqət göstərmə, sevmə, öz əqidəsinə qeyri-adi sədaqət; təəssübkeşlik. Başqa sözlə desək, kor məhəbbət. Və bu kor məhəbbət öz ünvanını da, korşaldır, məhv edir.

Fanatlar kor məhəbbətlə bağlandıqları məhfuma toxunulmazlıq statusu verirlər. Ola bilər bu məhfum (bu hər şey ola bilər) müəyyən dövr üçün uğurlu olsun, ancaq təkmilləşməsə həmin məhfum geriləyəcək, ən yaxşı halda durduğu yerdə qalacaq və tarixə çevriləcək. Fanatlar tənqidi, "ələyi", modifikasiyanı yaxın qoymurlar. Ksenofob olurlar, iki ayaqlarını bir başmağa dirəyib yeniliyi yaxın buraxmırlar. Çünki, bağlandıqları məhfumu toxunulmaz, dəyişilməz hesab edirlər. "Belə də qəbuldu", "belə xoşdu" deyərək məhv edirlər.

Fanatlar heç vaxt obyektiv olmurlar. Çünki hər şeyə o məşhur fikir adamı demişkən, çəhrayı eynəklə baxırlar, hər şeyi eyni prizmadan görürlər, dəyərləndirirlər.

"Təriflləmə , zayı çıxacaq" şablonu, şablon olsa da, empirik söhbətdir, sınanıb sınaqdan çıxıb.

İfratca fokuslandığın bir şeyin mənfi tərəfini görməzdən gəlirsənsə, mənfi tərəfini göstərəni də yaxın qoymursansa, onu məhv etmiş olursan.

Bu, bir növ ərköyün övlad böyütmək kimi bir şeydir. Ərköyün böyüyənlər isə, ərköyün böyüdənlərə ziyandan, üzqaralığından başqa bir şey gətirmirlər.

Fanatizm avantürizmə, xəyalpərəstliyə də sürükləyir. Bir növ reallıqdan uzaqlaşdırır. Obyektivlikdən uzaqlaşdırır. Hər şeyə kor məhəbbətlə bağlandığı o məhfumdan yola çıxır. Geridə qalan heç nəyi qəbul etmir, yaxın qoymur. Yalnız bir nöqtəyə cəmlənir. Monoton olur.

***P.S. Bir də belə deyək.Təsəvvür edin ki, birisi bir komandanın fanatıdır. Kor məhəbbətlə bağlıdır. Necə var elə qəbul edir. Kimlə qarşılaşır, qarşılaşsın,deyir "udacaq". Olanını-qopanını qoyur və məğlub olur. Nəticədə "tüfeyli" statusu qazanır.***

Həmid SADIX

## TƏHSİL GƏLƏCƏYİN ƏSASIDIR

***Düşünürəm ki, zaman məfhumunun oxumaq istəyinə heç bir təsiri yoxdur. Çünki ziyalısı olmayan bir cəmiyyətə cəmiyyət demək olmaz. Təhsil insanın mənəvi simasıdır. Heydər Əliyev tərəfindən deyilmiş bir sözü qeyd etmək istəyirəm: "Təhsil millətin gələcəyidir, təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır, nə də ticarətdir. Bu cəmiyyətin xüsusi intellektual cəhətini əks etdirən sahədir. Belə halda təhsil sisteminə çox diqqətli yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır.". O cümlədən, alman yazıçısı Höte də çox məşhur bir söz söyləmişdir: "Oxumaği öyrənmək peşələrin ən alisidir, həyatımın səksən ilini bu işə verdim yenə də özümdən məmnun olduğumu deyə bilmərəm". Yəni ki, oxumaq elə bir hissdir ki, bu işə baş qoşdunsa özünə hakim ola bilmirsən, oxuduqca oxumaq istəyirsən, daha da dərinə getmək üçün can atırsan.***

Araşdırsaq təhsil haqqında söylənilmiş saysız-hesabsız kəlamlar yazmaq olar, bu da ona işarədir ki, əzəldən bəri təhsil heç də dəbdən düşməyib, ziyalı insanlar əbədiyyən mövcud olacaqlar. Təhsil artıq bir çox ölkədə geniş şəkildə yayılıb və bunun üçün müxtəlif şəraitlər yaradılıb, hələ də yaradılmaqdadır. Statistikaya əsasən təhsil üçün ən çox üz tutulan xarici ölkələrdən ilk beşliyə: İsveçrə, Çexiya, Belçika,İsrail, Yeni Zelandiya daxildir. Bu ölkələrdəki universitetlər yuksək prestijə malik olmaqla yanaşı, bir coxunda pulsuz təhsil almaq şansına da sahib olmaq mumkundur.

Ancaq bizim ölkəmiz onlardan heç də geri qalmır. Misal üçün, qeyri-gürcü olaraq yalniz 1 imtahanla universitetə qəbul olub, sonra öz təhsilimizi daha ali pillələrdə davam etdirmək şansına malikik. Dövlətimizin bi-



zim üçün yaratdığı bu imkan üçün özümüzü xoşbəxt hiss etməliyik. Qeyd etmək istəyirəm ki, Qərb ölkələrində təhsil nə qədər inkişaf etsə də, müsəlman ölkələri hələ də bu cəhətdən geri qalır. Türk yazıçısı Metin Munir söyləmişdir: "Mənə zəif təhsil sistemi göstərin, sizə Müsəlman ölkə göstərim". Bütün bunların səbəbi yetişdirmə tərzidir. Uşaqlar hər nə qədər təhsildən uzaq şəraitdə yetişdirilsələr, bir o qədər də savadsızlıq baş alıb gedəcək.

***Sevindirici haldır ki, bizim gənclər təhsilə böyük maraq göstərirlər. O,cümlədən Nəzərlidə, Kosalıda oxuyan gənclərin sayı günbəgün artır. Bu da ona işarətdir ki, gələcəkdə iş yerləri çoxalacaq, savadlı və gənc kadrların sayı artacaq. Son dövrlərdə təhsildə tətbiq olunan yeniliklərin ugurlu fəaliyyəti bu strategiyanın gələcəkdə böyük nəticələr verəcəyini deməyə əsas verir. Müasir təhsillə ayaqlaşan ölkəmiz də artıq dunya təhsilində öz yerini tapmaqdadır. Bizlər isə bu yaradılan imkanlardan məharətlə istifadə etməliyik. Unutmamalıyıq ki, bütün bunlar savadlı bir gələcək üçündür.***

Aytac ELXAN

## MÜƏLLİMLİK PEŞƏSİNİ SEÇMƏK QƏRARI VƏ ONUN MƏSULİYYƏTİ



Anaxanım VÜQAR

**Gündəlik həyatımızda addımbaşı seçim etmək məcburiyyətində qalırıq. Forma və nəticəsindən asılı olaraq seçimlərimiz bəzən bizim həyatımızı dəyişməklə qalmır, digərlərinin həyatına da təsir edə bilir. Bu dəfəki mövzumda beyinlərdə sadə, primitiv təəssürat qoyan, özlüyündə isə bütöv bəşəriyyəti dəyişmək qabiliyyətinə malik nəticəsi olan müəllimlik peşəsilə bağlı düşüncələrimi vermək niyyətindəyəm.**

Yazıma seçdiyiim mövzu ilə əlaqədar sonda mənə haqq verəcəyinizə ümid edərək, mövzumu yazımın girişindən ayırılıb məqsədə keçmək istəyirəm.

Məktəb ilkin təhsil müəssisəsidir. O, şagirdlərə yalnız elmləri öyrətmir, həm də davranış, danışıq və qərar qəbul etmək kimi mənəvi, psixoliji tərbiyə də verir. Məktəbin ən önəmli və fəal üzvü bu müəssisədə bunların hamısını bizə bəxş edən müəllimdir.

Zənnimcə, girişdəki "cəmiyyətimizdə ən önəmli yer müəllimə verilməlidir" mövzusunda fikrimin əlehinə kimsə düşünmür. Çünki aydındır ki, digər peşə bölmələrinə giriş verən , ümumilikdə isə cəmiyyətin tərbiyəsində aparıcı rol oynayan məhz odur.

L.N.Tolstoya görə, öz işini sevən müəllim yaxşı müəllimdir. Bununla yanaşı uşaqlarını və fənnini sevən müəllim isə əla müəllimdir.

Müəllim istərsə özündən sonrakı cəmiyyətin nəinki bilik və tədrisində, o cümlədən həyatının digər hissələrində önəmli yer tuta bilər. Düşünürəm ki, hətta cəmiyyətin gələcəyini xilas etmək qabiliyyətinə malik yeganə vasitələrdən birinin " öyrətmək" olduğu barədə düşüncələrimdə də yanılmıram. Çünki, öyrənmək, bilmək, tətbiq etməkdən əlavə öyrətmək qabiliyyətinə malik insanlar planetimizə sayıla biləcək qədər, nadir göndərilir. Sırf bunun üçün əminliklə "mükəmməl insanı mükəmməl müəllim yetişdirə bilər" deyə bilərik.

Zənnimcə, müəllimlik seçilə biləcək bütün peşələrdən daha çox əminlik, istək və məsuliyyət tələb edir. Peşəkar müəllim dedikdə yalnız təhsilin ən ali dərəcəsinə yiyələnmək nəzərdə tutulmur. Müəllimlik ali dərəcə, sağlam psixologiya, məlumatı düzgün aşılamaq və ünsiyyət, eləcə də digər pedoqoji qabiliyyətlərlə birlikdə kompleks bir sahəni təşkil edir.

Yuxarıda sadaladıqlarımdan sonra sənət seçimində abituriyentlərə məsləhət məqsədi ilə aşılanan "gedib müəllimliksə oxumaq" fikrini yazımda ədəbiyyatımızın litota, təşbeh bölməsinə yerləşdirmək istəyirəm.

İnsanların talelərinin əlimizdə olması üçün həkim olmaq qədər, müəllim olmaq da seçilə biləcək variantlardandır. Düşünürəm ki, gələcəkləri əlimizdə olan onlarla şagird üçün "müəllimsə" olmaq təfəkküründən ayılmalı, həqiqi müəllim olmaq gərəkdir.

Çünki müəllimlik peşə xüsusiyyətlərindən və hər şeydən əlavə savadın və səbrin paralel tarazlığına ehtiyac duyulan qabiliyyətdir.

Gündəlik hayatımızda narazılar bölməsinə nəzər yetirsək müəllimin də diqqətçəkən mövqedə olduğunu görə bilərik. Ancaq, düşünürəm ki, sadaladığım standartlara uyğun müəllimlərin hazırki dövrdə maddi maraqları da qismən təmin olunmalıdır.

Almaniya kansleri Otto fon Bismark Almaniyanın möhtəşəmliyini alman xalq müəllimi ilə bağlayırdı. Fransa -Prussiya müharibəsində Prussiyanın qələbəsini alman müəlliminin qələbəsi hesab edirdi: biz qələbə çaldıq, ona görə ki, alman müəllimi fransız müəlliminə üstün gəldi.

Orta məktəb insan həyatının nəinki təkcə təhsil prosesinin, o cümlədən təlim-tərbiyə prosesinin də onurğa sütununu təşkil edir. Orta məktəbdə ən yaxşı müəllimlə rastlaşan şagird, həyatının sonrakı mərhələlərində hiss etməsə belə, onun təsiri ilə düzgün qərarlar qəbul edə bilir. Yəni belə deyə bilərik ki, dünyada yaşayan hər bir insanın taleyi az da olsa müəllimin əlində olur.

Müəllimin əxlaqi və peşə funkisiyaları yalnız onun şəxsiyyəti üçün önəmli yer tutmur. O, həm də şagirdin fikrində ideal obrazdır, gələcəkdə özünü görməsinə yol açan mayakdır.

**Zənnimcə, müəllimlik peşəsini seçmək qərarı həyatımızda verə biləcəyimiz ən məsuliyyətli qərarlardan biridir, bu peşəni seçərkən bütün potensialımızı nəzərə almamız gərəkdir.**

# HZ. İBRAHİMİN DUASI, HZ. İSANIN MÜJDƏSİ HZ. MƏHƏMMƏD MUSTAFA (S.Ə.S)

***Bəzi sözlər vardır ki, tələffüz edilməsi bəzən sənədə, bəzən ciddi hörmətə tabedir. İnsan bu inci kimi sözləri söyləyərkən özünə çəki-düzən verməlidir. Təbiri caiz isə duruşunu düzəltməlidir. Çünki cümlələr bu sözləri içinə aldıqda məna qazanır, sözlər məna yüklü buludlar kimi dolur.***

Sizlərə bu yazımda varlığımızı borclu olduğumuz İki Dünya Sərvəri, Fəxri Kainat Əfəndimiz Hz. Məhəmməd (s.ə.s) haqqında yazmağı düşündüm. Düşündüm, çünki bu ay İslam aləminin sevinc ayıdır. O, mübarək insanın dünyaya gəldiyi günlərin abu-havası var bu günlərdə. Elə bu səbəblə də onu sevmək, onu özümüzə örnək almaq haqqında yazmaq istədim.

Bəli, varlığımızı borclu olduğumuz deyərək başladım, çünki Allah (c.c) "Həbibim, Sən olmasaydın Kainatı yaratmazdım." – buyurur. Bu nöqteyi-nəzərlə dünya üzərində yaşadığımız bu fani həyatı onun varlığına borcluyuq.

Bir başqa yöndən "İnsan sevdiyi ilə bərabərdir" Hədisi Şərifini də nəzərə alsaq, elə bir rəhmətə, bir günəşə, bir işığa və aydınlığa hava kimi, su kimi ehtiyacımız var. Bu dövrdə onun əskikliyi o qədər hiss olunur ki, ancaq ona müştaq və mütəşəkkir könüllər bunu izah edə bilər.

Onunla (s.ə.s) görüşmək üçün onu çox sevməli, sevgimizi göstərmək üçün də tabe olduğumuzu isbat etməliyik. Çünki ona olan sevgimiz bizləri Allaha (c.c) çatdıracaq.

"Həbibim, de ki: Əgər Allahı sevirsinizsə mənə uyun ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın".

Axirət aləmində ona çox ehtiyacımız var. Onu sevməmiz onu yaxşı tanımamızdan keçər, həyatını və xüsusiyyətlərini bilməmiz onu daha çox anlamamıza və məqsədini bilməmizə səbəb olar. Bəli, O (s.ə.s), aləmlərə rəhmət olaraq göndərildi. Çünki dünyaya təşrifindən əvvəl yaşanılan qapqaranlıq o dövr cildlərlə ensiklopediyalara mövzu olmuşdur. O (s.ə.s), bir nur idi. Gəlişi ilə kainatı nurlandırdı, işıqlandırdı. Qaranlıq ruhların yox olmasına, işıqlı qəlblərin meylinə səbəb oldu.

O (s.ə.s), gəlmədən əvvəl yer üzündə insanlıq qüruru deyə bir şey qalmamışdı. İnsanlar pul ilə alınıb satılırdı. Qız uşağı olmaq bir utanc məsələsi idi. Ya bu utancla yaşanacaq, ya da diri-diri torpağa basdırılıb başı dik gəzilcəkdi. Hələ qadınların heç dəyəri yox idi. Onlar bazarlarda satılan bir əşya hökmündə idilər.

Hər şeydən əhəmiyyətlisi tövhid əqidəsi yerlə bir olmuş, Allah inancı olmadığı üçün ürəklər sərtləşmişdi. Kəbənin içi 300-dən çox bütlə dolmuşdu. İnsanlıq bu daşdan, ağacdan düzəldilmiş şəkillərdən mədəd umub, hər cür ehtiyacları üçün bu cansız əşyalara müraciət edirdilər. Daha da maraqlısı pendirdən, halvadan bütlər düzəldirdilər, qarınları acınca da yeyirdilər. Bu və buna bənzər yüzlərlə xəstəlik cəmiyyət içərisində yayılırdı. İnsanlar pərişan bir vəziyyətdə idilər. Faiz bataqlığı cəmiyyəti iflic etmişdi.

Bax belə bir zamanda, yerdə və göydə olan bütün varlıqlar ortalığı örtən qara buludları dağıdacaq, həqiqət nurunu parıldadacaq rəhmət və şəfqət Peyğəmbəri Hz. Məhəmmədi (s.ə.s) gözləyirdi. Çünki Onun gələcəyi özündən əvvəl gəlmiş peyğəmbərlər tərəfindən müjdələnilmişdi. Bu gerçəyi Uca Peyğəmbərimiz (s.ə.s) belə ifadə etmişdir: "Mən Hz. İbrahimin duası, Hz. İsanın müjdəsi və anamın yuxusuyam". Qurani Kərimdə isə bu xüsus belə xəbər verilməkdədir. Hz. İbrahim (ə.s) duasında: "Rəbbimiz! İçlərindən onlara bir Peyğəmbər göndər; onlara ayələrini oxusun, kitabı və hikməti öyrətsin və onları hər cür pislikdən təmizləsin. Şübhəsiz sən, mütləq güc sahibisən, hökm və hikmət sahibisən." demişdir ( Bəqərə, 129). Hz. İsa (a.s) Onun gələcəyini belə müjdələmişdi: "Hanı Məryəm oğlu İsa; "Ey İsrail oğulları! Şübhəsiz mən, Allahın sizə məndən əvvəl gələn Tövratı təsdiqləyici və məndən sonra gələcək Əhməd adında bir Peyğəmbəri müjdələyici (olaraq göndərdiyi) Peyğəmbəriyəm." demişdir."(Səf, 6)

Budur Hz. İbrahimin duası, Hz. İsanın müjdəsi və Hz. Əminənin yuxusu olan Hz. Məhəmmədi (s.ə.s) Uca Allah Miladi 571-ci ilin 20 Aprelində, qəməri aylardan Rəbiül-əvvəl ayının 12-ci gecəsi səhərə qarşı aləmlərə rəhmət olaraq göndərdi. Qurani Kərimin ifadəsiylə Uca Allah bizləri belə müjdələyir: "(Ey rəsulum!)Biz səni ancaq aləmlərə rəhmət olaraq göndərdik". Aləm, duyğu və ağıl yoluyla qavrana bilən və ya mövcudluğu düşünülə bilən, Allahın xaricindəki varlıq və hadisələrin hamısını ifadə edən bir termindir ki, bu ayeyi cəlilədə keçən "aləmin" sözüylə bütün varlıqların hamısı nəzərdə tutulmaqdadır. Yəni Uca Peyğəmbərimiz (s.ə.s) bütün varlıqlar üçün bir rəhmət vəsiləsidir.

Allahu Təala, bir insanda ola biləcək görünən və görünməz bütün yaxşılıqları, bütün üstünlükləri, bütün gözəllikləri həbibində yığmışdır. Onun heç bir hərəkətində, heç bir işində, heç bir sözündə, heç bir zaman, nə bir çirkinlik, nə də bir qüsur görülməmişdir. Hər Peyğəmbər öz zamanında, öz məkanında, öz qövmünün hər baxımdan ən üstünüdür. Peyğəmbərimiz Hz. Məhəmməd (s.ə.s) isə, dünya yaradıldığı gündən qiyamətə qədər, hər zamanda, hər məkanda, gəlmiş və gələcək bütün varlıqların hər baxımdan ən üstünü, ən fəzilətlisidir. Cənabı Haqq Onu elə yaratmışdır. Bəli, həqiqətən aləmlərə rəhmət olaraq göndərilmiş olan Uca Peyğəmbərimiz Hz. Məhəmməd (s.ə.s) bütün əxlaqı gözəlliklərlə bəzənib təchiz edilmiş və bütün qüsurlardan təmizlənilmiş tək nümunə və tək rəhbərdir. Onun bu xüsusuna işarə olaraq Uca Rəbbimiz belə buyurmaqdadır: "And olsun ki, Allahın Rəsulunda sizin üçün, Allaha və axirət gününə qovuşmağı ümid edənlər və Allahı çox zikr edən kəslər üçün gözəl bir nümunə vardır."

(Kainatda olan hər şey ONA böyük bir hörmətlə və sevgiylə bağlı idi. Tarixdə bunu gözlər önünə sərən nümunələrdən yalnız ikisini desək kifayət edər. Hz. Əli (r.a) deyir ki: "Biz Məkkə və ətrafında Əfəndimizlə birlikdə gəzərdik. Dağlar, daşlar və ağaclar arasından keçərkən onların hər biri Peyğəmbərimizə "Allahın salamı üzərinizə olsun, Ey Allahın Elçisi!" – deyə salam verərdilər." Peyğəmbərimiz məscidində ilk zamanlarda xütbəni bir xurma kötüyü üzərində oxuyardı. Səhabeyi Kiram, rahat danışması üçün Peyğəmbər Əfəndimizə bu günkü minbərə bənzər bir minbər düzəltdilər və onun üzərinə çıxaraq danışmasını istədilər. Sevimli Peyğəmbərimiz yeni düzəlmiş minbərin üzərinə çıxıb xütbəsini oxumağa başladıqda, Əfəndimizin daha əvvəl xütbə oxuduğu sırada üzərinə çıxmış olduğu xurma kötüyündən balasından ayrılan dəvənin iniltisinə bənzər səslər gəlməyə başladı. Peyğəmbər əfəndimiz minbərdən enib əlini kötüyün üzərinə qoyaraq onu oxşayınca kötüyün iniltisi kəsilmişdir. Peyğəmbərimiz (s.ə.s): "Əgər mən onu qucaqlamasaydım qiyamət gününə qədər belə inləyib duracaqdı" – buyurmuşdur. Hz. Peyğəmbərin əmriylə kötük yerindən alınıb yeni minbərin altına qoyuldu. Bəli, Uca İslam, tam bir rəhmət dinidir. Əfəndimizin (s.ə.s) göndəriliş məqsədi də rəhmətdir. O, rəhmətlə ürəklərə girərək könülləri fəth etmişdir. "Allahın rəhməti sayəsində sən onlara yumşaq davrandın. Əgər kobud və qatı ürəkli olsaydın ətrafından dağılıb gedərdilər" buyruğu, Onun bu xüsusiyyətini açıq bir şəkildə ortaya qoymaqdadır.

Aləmlərə rəhmət olaraq göndərilən, kainatın baş tacı, əbədi rəhbərimiz, varlığımızı və qurtuluşumuzu borclu olduğumuz sevimli Peyğəmbərimizi layiqiylə izah etməyə nə kitablar yetər, nə də insanoğlu buna gerçək mənada qadir ola bilər.

***Peyğəmbər Əfəndimizin şairlərindən Hassan b. Sabitin bu sözü nə qədər mənalıdır: "Mən, Məhəmməd Mustafadan (s.ə.s) bəhs edərkən, Onu mədh etmirəm, əksinə Ondan bəhs etməklə, öz sözlərimi qiymətləndirmiş oluram. Çünki Onun məddahı Uca Allahdır".***

Hacı BƏKİROĞLU

## MARNEULİDƏ AZƏRBAYCANDİLLİ MƏKTƏBLƏRİN ŞAGİRDLƏRİ ARASINDA ÜMUMİ FƏNLƏR ÜZRƏ OLİMPİADA KEÇİRİLİB

Gürcüstanda azərbaycanlıların kompakt yaşadıqları Marneuli rayonundakı 8 nömrəli İctimai məktəbdə azərbaycandilli məktəb şagirdləri arasında növbəti rayon səviyyəli olimpiada keçirildi. Yarışda 21 məktəbin (Əzizkənd, Alegt 1, Alget 2, Ağaməmmədli, Baydar, Dəmiyəgorarxı və. s) VIII, IX, X və XI siniflərindən 90-dək azərbaycanlı şagird iştirak edirdi. Olimpiadada şagirdlər ümumi fənlər üzrə (gürcü dili, Azərbaycan dili və ədəbiyyatı, ingilis dili, tarix, riyaziyyat, coğrafiya, biologiya, kimiya, fizika) 10 sualı cavablandırıblar. Qeyd edək ki, müsabiqədə iştirakçılara verilən sualları cavablandırmaq üçün 30 dəqiqə vaxt verildi. Suallar arasında Azərbaycan dili və ədəbiyyatı fənninə geniş yer ayırılmışdı. Onu da bildirək ki, azərbaycandilli məktəblərin şagirdləri arasında keçirilən rayon səviyyəli olimpiada Gürcüstan Elm və Təhsil nazirliyinin və Marneuli rayon İcra hakimiyyətinin dəstəyi ilə baş tutub. "Gürcüstanda Azərbaycanlı Müəllimlər İttfaqı"nın təşəbbüsü və təşkilatçılığı ilə həyata keçən olimpiadada 4 şagird qalib gəlib. 8-ci sinif üzrə Baydar İçtimai məktəbinin şagirdi Lətifə Şərəfova, 9-cu sinif üzrə Təkəli İçtimai məktəbinin şagirdi Cəsur Hacıyev, 10-cu sinif üzrə Əzikənd İçtimai məktəbinin şagirdi Aydəmir Bayramov, 11-ci sinif üzrə isə Qırxlı İçtimai məktəbinin şagirdi Ziyəddin Hüseynov olimpiadanın qalibi olub.



Birinci yerə çıxan şagirdlərə təşkilat tərəfindən xüsusi diplom və qiymətli hədiyyələr təqdim edildi. Hədiyyələrin təqdimat tədbirində Gürcüstan Parlamentinin deputatı Mahir Dərziyev, Marneuli Resur Mərkəzinin rəhbəri Kənan Omarov, professor, tarixçi Mahmud Hacıxəlilov, məktəb direktorları, müəllimlər, ziyalılar və valideynlər iştirak edirdilər.

Sonda olimpiadada iştirak edən şagirdlərlə xatirə şəkili də çəkdirildi.

Tədbir zamanı deputat M.Dərziyev şagirdlər qarşısında çıxış edərək bu cür olimpiadaların keçirilməsinə görə "Gürcüstanda Azərbaycanlı Müəllimlər İttfaqı"nın sədri Səadət Zeynalqızına təşəkkürünü bildirdi. O, belə müsabiqələrin şagirdlərin daha dərin elmi biliklərə yiyələnmələri üçün stimul olduğunu vurğuladı. Sonra çıxış edən professor Mahmud Hacıxəlilov uzun illərdir ki, azərbaycandilli məktəb şagirdləri arasında belə olimpiadaların keçirilmədiyini bildirərək, ittifaq tərəfindən mərhələli şəkildə azərbaycanlıların kompkt yaşadıqları rayonlarda bu cür bilik yarışlarının keçirilməsinin olduqca müsbət əhəmiyyət kəsb etdiyini dedi.

Sonda Gürcüstanda Azərbaycanlı müəllimlər İttifaqının sədri Səadət Zeynalqızı çıxış dərək olimpiadanın keçirilməsində göstərdiyi dəstəyə görə Marneuli rayon İcra Başçısı cənab Merab Topçuşviliyə dərin təşəkkürlərini bildirdi.

Məlumat üçün onu da bildirək ki, təşkilat tərəfindən növbəti olimpiadaların Bolnisi və Dmanisi rayonlarında keçirilməsi nəzərdə tutulur.

Almaz NADİROĞLU

# VAQİF VƏ GÜRCÜSTAN

***Bu il Azərbaycanın klassik şairi, lirik poeziyamızın qüdrətli nümayəndəsi Molla Pənah Vaqifin anadan olmasının 300-cü ildönümü Azərbaycandan başqa, digər ölkələr də təntənələrlə qeyd olunur. Bu münasibətlə "Yeni Yol" da müxtəlif səpkili yazılar təqdim etməyi özünə borc bilir.***

**Molla Pənah Vaqif Azərbaycan ədəbi düşüncəsində özünəməxsus yer tutur. Bundan başqa, o, dərin lirik duyğular yaradıcısıdır. Azərbaycan ədəbiyyatşünasları onu yeni ədəbi dövrün – Azərbaycan realist poeziyasının banisi hesab edirlər. Elə onların dediyinə görə, Vaqif poeziyanı səmadan yerə endirdi. Bu"səma" sözündə Şərq poeziyasının ənənəvi-romantik yönümü, dini-teoloji dünyanı dərketmə və aşiqanə lirikanın ictimai institutunun tarixi məğzi nəzərdə tutulur. Burada poetik qavrayışın fərdi-subyektiv anlayışı itirilib, şərti, lakin həddindən artıq möhkəm kanonik təsviretmə formaları ilə ümumi poetik düşüncəyə çevrilmişdir.**

Belə bir dururumda Vaqif poeziyasının yönümü ümumi Şərq poetik düşüncəsinin ənənəvi mühafizəkarlığı əleyhinə çıxır, eyni zamanda dövrün əhval-ruhiyyəsi xarakteri daşıyırdı.

Bu, ümumi ədəbi xidmət onun idi, onun milli ədəbiyyat qarşısında az xidmətləri yoxdur. O, biləərkdən Azərbaycan poetikası üçün yad olan ərəb şeir vəzni əruza arxasını çevirdi. Və əksər hallarda milli xalq vəzni olan heca vəznində, xalq danışıq dilində (eyni zamanda ədəbi hədlərə əməl etməklə) yazırdı. Bu da onun poeziyasını bütün təbəqələrin poeziya həvəskarları üçün əlçatan edirdi. Bu xüsusuyyətlərilə Vaqif poeziyası həddindən artıq geniş əks-səda doğururdu və ona təkcə müsəlman ölkələrində deyil, eləcə də xristian ölkələrində də, o cümlədən Gürcüstanda da maraq göstərən tapılırdı.

Vaqif Gürcüstan ilə siyasi fəaliyyəti ilə, eləcə də poeziyası ilə əlaqədardır. Gürcüstan mövzusu Vaqifin poeziyasının xüsusu tərkib hissəsidir. Belə ki, Vaqifin bizim ölkə ilə əlaqəsini şərti olaraq belə adlandırmaq olar: Vaqifin poeziyasında Gürcüstan və Vaqif Gürcüstanda.

Tarixi, eləcə də ədəbi mənbələr təstiqləyirlər ki, Vaqifi və onun poeziyasını bizdə artıq XVIII əsrin sonlarında tanıyırdılar. Gürcüstan Elmlər Akademiyası Əlyazmaları İnstitutu Fondunda mühafizə olunan bir sıra dəftərdə Vaqifin gürcü əlifbası ilə yazılmış bir neçə şeiri vardır. Vaqifin şeirlərinə şahzadə Teymurazın hazırda Rusiya Elmlər Akademiyası Sankt-Peterburq Şərq Əlyazmaları İnsitututunda qorunub saxlanılan dəftərində də rast gəlirik.

Bizim şair Qriqol Orbelianinin Dağıstandan, Teymurxanşuradan (indiki Bunyaksdan) 1850-ci ildə Qaplan Orbelianiyə yazdığl məktub çox maraqlı məlumat verir:

"...Sənin oğluyun fars dilini öyrənməsi məni sevindirdi. Kaş ki, keçən il onu bura gətirəydin: Qarabağlı Mirzə Hüseyn mənim yanımdadır. İran tarixini yazdırıram... Tezliklə Vaqifin burada həmin Mirza Hüseyn tərəfindən nəşr olunan tam şeirlərini sizə bəxş edəcəyəm. (Q. Orbeliani, məktubları,II, səh.163).

Vaqif şeirlərinin ilk naşiri Mirzə Yusif Nersesov Vaqif şeirinin vurğunu Mirzəcanın köməkliyi ilə 1828-ci ildə şairin ilk kitabını nəşr etdirmişdir. 1850-ci ildə isə onun 70 şeirinin daxil edildiyi və Qriqol Orbelianin xatırladığı "Vaqif və onun müasirləri" toplusu nəşr olunmuşdur.

Sözsüz ki, Şərq poeziyası və aşıq-qaraçoxeli adlanan poeziya həvəskarı olan Qriqol Orbelianiyə Vaqifin yaradıcılığını və şübhəsiz, onun aşiqanə lirikasını nə dərəcədə bəyənərək aldlğı ləzzət də yaxşı məlum idi.

Lakin Vaqif poeziyasının Gürcüstanda yayılmasının əsas səbəbini hər halda gürcü məişətinin tarixi perimetrlərində axtarmalıyıq. XVIII əsrin sonlarında Şərqin güclü siyasi-iqtisadi, istərsə də mədəni ekspansiyası o qədər güclü idi ki, gürcü məişəti də o qədər ona uyğunlaşmışdı. Təkcə Qriqol Orbeliani deyil, eləcə də yaradıcılığında Şərq məişətinə ideya-forma şəklində rədd cavabı verən Nikoloz Barataşvilinin özü də xanəndə Səttarın naləsini dinləməkdən çəkinmirdi.



Növbəti əsrlərdə Vaqif poeziyasına qarşı özünün doğma vətəni Azərbaycanda olduğu kimi, onun hüdudlarından kənarlarda da maraq artmışdır. Şairin yaradıcılığı elmi cəhətdən tədqiq olundu, onun lirikası Covet İttifaqı xalqlarının dilinə tərcümə olundu, bu il isə məlum olduğu kimi, artıq Vaqifin şeirlər toplusu gürcü dilində gürcü oxucusunun ixtiyarına verildi.

Gürcü-Azərbaycan ədəbi əlaqələrinin və elə Vaqifin poeziyasının daha yaxşı mənimsənilməsi üçün Vaqif poeziyasında Gürcüstana və Tiflisə qarşı əks olunan şairanə duyğular çox böyük əhəmiyyətə və marağa malikdir.

Məlum olduğu kimi, Vaqif 1784-cü ildə diplomatik missiya ilə II İraklinin sarayında olub. Güman edilir ki, bir şair kimi onun üçün müvafiq görüş təşkil ediblər. İraklinin sarayının ədəbi mənafelərinin geniş sahəsi buna imkan verib. Azərbaycan şair və dövlət xadimini Gürcüstanın təbiəti, Tiflis, çar İraklinin ailəsi, gürcü qızının saflığı heyran edib. Onlara bir neçə şeir həsr edib.

Bu şeirlərdən biri belədir: "Kəsrəti-hüsn ki, xoş mərtəbədir insanə, bəxş edibdir onu həqq dilbəri-Gürcüstanə". Burada da gürcü qızına təriflər qoşulub. Vəcdə gələn şair özünün poetik bütün saxlancını qara zülflərin, bahar laləsi kimi yanaqların, qəşəng yaqut dodaqların, qızılgül ətirli, qüsursuz kirpik və qaşların qeyd-şərtsiz yaraşıq verdiyi gürcü qızının gözəlliyini vəsf etmək üçün əsirgəmir.

Sözügedən bu şeiri Vaqif özünün böyük dostu və xəttat Vidadiyə göndərir. Qeyd etmək lazımdır ki, bu şeir "Идеал красавицы" başlığı ilə rus dilinə tərcümə olunmuş və M.F. Axundov 1855-ci ildə Zaqafqaziyanın "Zurna" almanaxında dərc etdirmişdir.

Gürcü qızının gözəlliyi Azərbaycan şairinin incə qələminə bir daha tuş olub. Həmin şeirin tərcüməsi K. Çiçinadzeyə məxsusdur. Şeirin dili həddindən artıq rəvandır, axıcıdır. Gərgin dinamiklik ilə xarakterizə olunur. Müxəmməs formasında yazılıb. Klassik formanın tələbi şairi şeirə daha artıq ağırlıq, təmkin, zəriflik verməyə də məcbur edib. Azərbaycan şairi kilsədən çıxan gürcü qızının əsiri olur:

Naz ilə ta ol buti-ziba kəlisadan çıxar,
Sərkəşü xəndanü bipərva kəlisadan çıxar,
Şahdır guya, geyib diba, kəlisadan çıxar,
Açıban tələt günəş asa, kəlisadan çıxar,
Şölə salmış aləmə kim, ta kəlisadan çıxar.

Tiflis gözəllərinin işvə-nazı, qüruru və mələk kimi obrazları şeirdə anoloji olaraq həddən artıq şirin və yandırıcı Şərq çalarları ilə əhatə olunmuşdur: – "Vəh, bu bağın nə əcəb sərv-dilaraları var".

Eyni zamanda şeirdə Tiflis hamamlarının şəfqəti və möhtəşəmliyi təsvir olunur. Tiflisin kükürdlü hamamlarını, mərmər üz çəkilmiş, şırıldayan qaynar fəvvarələrini cənnətlə müqayisə edir. Elə bu şeirdə o çar İraklinin ailəsinə xeyirxahlıqlar arzulayır, Tanrıdan onun hər bir xata-bəladan xilas olunmasını diləyir.

Vaqifin qələminə Azərbaycan, eləcə də gürcü tədqiqatçıları arasında şahzadə Leona həsr olunduğu söylənən daha bir gözəl şeir məxsusdur. Lakin bu son illərdə belə bir fikir ifadə olundu ki, şeirin ünvanı Leon deyil, Yulondur. Tədqiqatçı A.Dadaşzadə belə bir qənaətə gəlib. Şeirin Leona həsr olunmadığını əvvəllər S. Mümtaz qeyd etmişdi. Lakin S. Mümtaz onun Yulona ünvanlandığını da söyləməyib. Məsələ burasındadır ki, Vaqif Gürcüstana 1784-cü ildə gəlib. Bu zamanlar isə artıq Leon sağ deyildi. İkincisi də ərəb yazısı ilə "Leon" və "Yulon" sözləri bir-birinə bənzəyir. Kifayət qədər əsaslı məlumatdır. Onu da nəzərə almaq lazımdır ki, şeirdə personaj şir ürəkli, qəhrəman kimi təsvir olunur:

Valinin çeşmi-çırağı, vəh nə türfə can imiş,
Külli-Gürcüstan üstə sayeyi-sübhan imiş.
Düşməni pamal edən sərdari-valaşan imiş,
Aləmin sərdəftəri, Yulon xan imiş,
Saxlasın Allah pənahında, əcəb oğlan imiş...

II İraklinin övladları arasında folklorun da qoruyub saxladığı şahzadə Leon məhz elə bu cür tanınmışdı. Şəksiz, bu məqam da "Yulonun" "Leon" kimi anlaşılmasına və xronoloji, istərsə də yazılı uyğunsuzluğa imkan yaratmışdır.

Sözügdən şeirdə İraklinin ailəsi tərif edilir: "Valinin ocağı böylə gün kimi taban imiş"

**Burada şair-diplomatın gürcü carına, gürcü xalqına qarşı münasibəti, onun Gürcüstana və Tiflisə bəslədiyi rəğbət hissi aydınca görünür. Şairin Şərq poeziyasının ənənəvi sözlərindən bol-bol istifadə etməklə və rəngarəngliklə bizim ölkəni tərifədiyi şeirlər də Vaqif lirikasının üzvi bir hissəsidir və Azərbaycan-gürcü əlaqələrinin ən yaxşı nümunəsidir, Vaqifin özü isə yüksək poetik istedadı, lətif sözləri, zərif duyğular və dolğun, təcəssümetdirici vasitələr ilə bu gün də sevimli şair olaraq qalmaqdadır.**

Giorgi ŞAĞULAŞVİLİ
"Literaturuli Sakartvelo" qəzeti, 22 noyabr, 1968-ci il.
Gürcü dilindən tərcümə edən: Mirzə Məmmədoğlu

# MARNEULİDƏ GÜRCÜSTANIN DÖVLƏT RƏMZLƏRİ SƏRGİSİ KEÇİRİLİB

Marneulidə Mədəniyyət Evinin sərgi salonunda "Müasir Gürcü Dövlət Rəmzləri" mövzusunda sərgi təşkil olunub.

Sərginin təşkilatçıları Gürcüstan Parlamentinin Heraldika Dövlət Şurası və Marneuli Bələdiyyəsinin Yerli Özünüidarəetməsi idi.

Sərgi çərçivəsində Gürcüstanın müstəqilliyinin bərpasından sonra yaranmış və tasdiqlənmiş dövlət rəmzləri, o cümlədən də muxtar respublikanın, özünüidarəetmələrin rəmzləri (gerb, bayraq), dövlət və nazirliklərin mükafatları, uniformalar, pul əskinasları və digər nişanlar nümayiş olunub.

Sərgininin təşkil edilməsində məqsəd dövlət rəmzlərinin təbliği, müasir gürcü rəmzlərinin, dövlət atributlarının, o cümlədən uniformologiya, numizmatika, faleristika, heraldika və veksillologiyanın necə inkşaf etməsi, bu istiqamətdə Avropa standartlarının Gürcüstanda necə bərqərar olması barədə şagirdlərə, tələbələrə, gənclərə və geniş ictimaiyyətə ətraflı məlumat çatdırmaqdan ibarət idi.

Tədbirdə Marneuli bələdiyyəsinin icra Başçısı Merab Topçişvili, yerli özünüidarəetmənin əməkdaşları, Təhsil Ehtiyat Mərkəzinin nümayəndələri, məktəb pedaqoqları, şagirdlər və digər maraqlanan şəxslər iştirak edirdilər.

Turac İBRAHİMOVA

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

30 aprel 2017-cı il
№008 (46)

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / “იენი იოლი” საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## ZÜLEYXA İSMAYILOVA ESTONIYADA SİYASİ PARTİYA LİDERİ SEÇİLİB

Bu yaxınlarda “ Estoniya Yaşılları “ partiyasının qurultayı olub.

Qurultayda azərbaycanlı Züleyxa İsmayılova bu siyasi gücün yeni lideri seçilib.

“Mən partiyanın sədri vəzifəsinə tək namizəd deyildim. Əvvəlki lider Aleksander Laane də öz namizədliyini irəli sürmüşdü. İndi Laane sədr müavini oldu, Andrey Qudim də sədr müavini olaraq qaldı”, - deyə əvvəllər partiyanın sədr müavini vəzifəsini tutmuş Z.İsmayılova müsahibəsində bildirib.

İdarə Heyətinə Timur Saqitov, Kyulliki Reymaa, Olev - Andres Tinn, Marko Kaazik, Kaspar Kurvaya və Yoonas Laks da daxil olublar.

Ekologiya sahəsində fəal, fotoqraf və jurnalist kimi çalışan Z.İsmayılova “Yaşıllar”ın sırasına 2015-ci ilin martında daxil olub. 2005-ci ildən 2012-ci ilə qədər onun tərkibi Sosial-demokrat partiyasının üzvlərindən ibarət idi.



Z.İsmayılova 2016-cı ildə Anne&Stiil jurnalının versiyasına görə “İlin Qadını” olub. Z.İsmayılovoanın anası eston, atası isə azərbaycanlıdır.

Xatırladaq ki, bu partiya 2007-2011-ci illərdə parlamentdə təmsil olunub.

## NƏZƏRLİ MƏKTƏBİNİN ŞAGİRDİ KVEMO-KARTLİ BÖLGƏSİ ÜZRƏ MÜSABİQƏNİN QALİBİ OLUB



20 aprel tarixində paytaxt Tbilisidəki Merkuri otelində “Gələcək nəsil” adlı vətəndaş təhili proqramı çərçivəsində şagirdlərarası videoadvokatlaşdırma müsabiqəsinin qaliblərinin mükafatlandırma tədbiri keçirilib. Videoadvokatlaşdırma müsabiqəsində Gürcüstanın 11 bölgəsindən 480 məktəbin şagirdləri iştirak ediblər. Müsabiqədə müxtəlif bölgələrdən 6 qalib elan edilib.

Kvemo-Kartli bölgəsindən isə 55 məktəb arasında Qardabni rayonundakı Nəzərli İçtiami məktəbinin 9-cu sinif şagirdi Almaz Məmmədov 1-ci yerə layiq görülüb. Onun nəqliyyat təhlükəsizliyi mövzusunda hazırladığı video münsiflər heyəti tərəfindən bəyənilərək qalib hesab edilib.

Sonra müsabiqənin qalibləri öz videolarını təqdim ediblər. Qaliblərə xüsusi diplom və hədiyyə təqdim edilib. Onu da qeyd edək ki, hədiyyələrin təqdimat mərasimində PH İnternational və USAİD-in nümayəndələri, müsabiqənin münsiflər heyəti, vətəndaş təhsili müəllimləri və şagirdlər iştirak ediblər.

## 10 YAŞLI DƏNİZ BEYNƏLXALQ TURNİRİN QALİBİ OLUB

“Məqsədim qızıl medal qazanmaq idi. Əvvəl gürcü idmançını məğlub etdim. Sonra erməni idmançı ilə qarşılaşdım. O, məndən həm hündür, həm də çəkidə ağır idi. Əvvəl qorxdum, amma sonra hücum taktikası ilə ona qalib gəldim. Çox sevinirəm”.

Bu sözləri “Report”un Gürcüstan bürosuna Tbilisidə keçirilən Tayboksinq üzrə beynəlxalq yarışın qalibi, 10 yaşlı Dəniz Tural oğlu Quliyev söyləyib.

Çempionatda Azərbaycan, Gürcüstan, İran, Türkiyə, İraq və Ermənistandan olan uşaq və yeniyetmə idmançılar mübarizə aparıblar. Marneuli rayonunun Yuxarı Saral kənd sakini, 10 yaşlı Dəniz Quliyev 23 kiloqram çəki dərəcəsində mübarizə aparıb. Finalda özündən boyca hündür və 27 kiloqram çəki dərəcəsində olan Ovanes Arutunyan ilə qarşılaşıb. Dəniz rəqibi



üzərində parlaq qələbə qazanıb. O, çempionatın qızıl medalına sahib olub.

Dənizin həmyerlisi, 3-cü sinif şagirdi Məmmədəli Quliyev də çempionatın qızıl medalını qazanıb.

## TBİLİSİ METROSU SƏRNİŞİNLƏRƏ KİTAB HƏDİYYƏ EDİB



Aprelin 19-da səhər Tbilisi metropoliteninin sərnişinləri vaqonların oturacaqlarına düzülmüş “İntelekt” və “Artanuci” nəşriyyatlarının kitablarından ibarət sürprizlə qarşılaşıblar. Xəbəri Tbilisi meriyasının şəhər nəqliyyatı xidməti yayıb.

Sərnişinlər kitab hədiyyəsi ilə yanaşı aprelin 23-də Mtasminda panteonunda Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü münasibətilə keçiriləcək tədbirə dəvətnamədə alıblar.

Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü ilk dəfə 1996-cı ildə qed olunub. Bu gün dünya mədəniyyətinin, tolerantlığın və mədəniyyətlərarası dialoqun inkişafında kitabın və müəllif hüququnun xüsusi əhəmiyyətini vurğulayır. Həmin gün ənənəvi olaraq bir çox dünya ölkələrində kitab yarmarkaları və sərgiləri təşkil olunur.

Tədbir çərçivəsində müasir gürcü yazıçıları kitablar və ədəbiyyat haqqında söhbətlər keçiriblər.

Mtasminda panteonu ərazisində xüsusi endirimlə kitab sərgi-satışı da keçirilib.

Tədbiri Tbilisi meriyası, Tbilisi nəqliyyat kompaniyası və gürcü nəşriyyatları təşkil edib.

Tbilisi meriyası tezliklə bütün metro stansiyalarında elektron kitabxana quraşdırmağı da planlaşdırır.

## ALTI DƏQİQƏLİK MÜTALİƏ STRESDƏN XİLAS EDİR



Hamımız da kitabın dost, müəllim və ya dünyaya açılan pəncərə olduğunu bilirik. Lakin çoxumuz kitabın dərman olmasını bilmirik. İngilis alimlərinin bu yaxınlarda aşkarlayıblar ki, kitab həm də insanın qayğılardan, həyacan və stresdən azad olunmasında əvəzsiz vasitədir.

Tədqiqat prosesində mütaliənin stress səviyyəsini 68% azaltması müəyyənləşdirilib. Əzələlərin yumşalması və nəbz döyüntülərinin normallaşması üçün cəmi altı dəqiqə mütaliə yetərlidir. Müqayisə üçün, musiqi dinləməsi stressi 61% azalda bilir. Bir fincan qəhvə və ya çay isə stressin 54% azalmasını təmin etməyə qadirdir. Gəzinti isə bu işdə insana cəmi 42% kömək etmək iqtidarındadır. Kitab seçimi üsulun effektivliyinə heç cür təsir etmir. Stresdən xilas olmaq üçün istənilən kitab yararlıdır. Stresdən xilas olmaq üçün kitabın süjetini anlamaq və kitaba aludə olmaq kifayətdir.

## «QUDA» PENDİRİ ABŞ-A İXRAC OLUNUR

Gürcüstanın dağlıq bölgəsi olan Duşetidə hazırlanan “quda” pendiri ABŞ-a ixrac olunub. Bu məhsulla İsrail də maraqlanıb, lakin fermerlər alp və supalp çəmənliklərində otlayan qoyun südündən hazırlanmış pendirə olan tələbatı hələlik tam ödəyə bilmirlər.

Pendirin hazırlandığı ferma iki il qabaq yaradılmış kooperativə məxsusdur. Kooperativ Avropa İttifaqının “Kənd təsərrüfatının və kəndin inkişafı” proqram layihəsi çərçivəsində yaradılıb. Onun maliyyələşməsi 130 min lari təşkil edib.

Əsasən qoyun südündən hazırlanan “quda” pendiri Gürcüstanın ən bahalı pendirlərindən biridir.

Kooperativin satış və marketinq üzrə meneceri Georgi Abuladze qeyd edib ki, ənənəvi pendir növlərindən başqa fermerlər itirilməkdə olan pendir hazırlama metodlarını da bərpa ediblər. Fermerlər istehsalı genişləndirmək niyyətindədirlər. Belə ki, məhsula olan tələbat istehsal olunan pendirdən üstündür.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı”

*Redaktor*:
Afiq Muxtaroğlu
*Yayım Direktoru*:
Hacı Bəkiroğlu

*ÜNVAN:* Qardabani şəh. Kolxoz küç, 4
*TEL:* (+995) 595 92 25 70
599 54 12 92
*EMAİL:* yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.